


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 244 (24.131)

*23 dekabr 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini qəbul edib



Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edib və ona müvafiq tapşırıqlarını verib.

Qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb.

Prezident İlham Əliyev tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin.

Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlətimizin başçısına təşəkkürünü bildirib və Prezident İlham Əliyevi əmin edib ki, bütün fəaliyyət dövlətimizin başçısının siyasəti üzərində aparılacaq, ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilsin.

2. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra – səlahiyyətli nümayəndə) rəhbərlik edir;

3.2. səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

4. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 oktyabr tarixli 1865 nömrəli və 10 dekabr tarixli 1901 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bənddən ", Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri çıxarılsın.

2. 2.4-cü və 2.7-ci bəndlərdən ", Naxçıvan Muxtar Respublikasında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə" sözləri çıxarılsın.

3. 3.1.2-ci yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırıqlarını" sözləri çıxarılsın.

4. 3.1.22-ci yarımbəndin ikinci cümləsi çıxarılsın.

5. 3.2.2-ci yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinə" sözləri çıxarılsın.

6. 4.1.3-cü yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi (bundan sonra – səlahiyyətli nümayəndəlik) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra – müvafiq ərazi) bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir.

1.2. Səlahiyyətli nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Səlahiyyətli nümayəndəlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Səlahiyyətli nümayəndəlik Naxçıvan şəhərində yerləşir.

*Ardı 2-ci səhifədə*

**2. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri**

2.1. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının (bundan sonra – yerli icra hakimiyyəti orqanları) fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;

2.1.3. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Səlahiyyətli nümayəndəliyin vəzifələri və hüquqları**

3.1. Səlahiyyətli nümayəndəliyin vəzifələri aşağıdakılardır:

3.1.1. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.2. yerli icra hakimiyyəti orqanları arasında, habelə yerli icra hakimiyyəti orqanları ilə digər dövlət orqanları (qurumları) arasında əlaqələndirməni təmin etmək;

3.1.3. müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılması üçün dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək;

3.1.4. aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının təklifləri əsasında müvafiq ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

3.1.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının və tapşırıqlarının müvafiq ərazidə dövlət orqanları (qurumları) tərəfindən yerinə yetirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.6. yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq ərazinin inkişaf meyillərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması, sosial əhəmiyyətli sifarişlərin öyrənilməsi işinin təşkilinə nəzarət etmək;

3.1.7. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış layihələrə dair rəy vermək;

3.1.8. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini təhlil etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.9. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar mütəmadi təhlillər aparmaq və Azərbaycan Respublikasının Prezidentinə hesabatlar təqdim etmək;

3.1.10. yerli icra hakimiyyəti orqanlarının kadr potensialının artırılması ilə əlaqədar təkliflər vermək;

3.1.11. müvafiq ərazidə əhalinin problemlərini öyrənmək və onların həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

3.1.12. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin həvalə etdiyi digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün səlahiyyətli nümayəndəliyin hüquqları aşağıdakılardır:

3.2.1. bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarına tapşırıqlar vermək;

3.2.2. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçısının müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.3. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətinin başçısı müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icra hakimiyyəti başçısının müəyyən etdiyi müavinlərindən biri tərəfindən həyata keçirilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.4. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarının fəaliyyətləri haqqında hesabat verməlɘri üçün müddətləri müəyyənləşdirmək;

3.2.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçıları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təkliflər vermək;

3.2.6. müvafiq ərazi ilə bağlı normativ hüquqi aktların layihələrinə dair təkliflər vermək;

3.2.7. təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək;

3.2.8. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

3.2.10. qanunvericilikdə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

**4. Səlahiyyətli nümayəndəliyin fəaliyyətinin təşkili**

4.1. Səlahiyyətli nümayəndəliyin strukturunu və ştat vahidlərinin sayını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

4.2. Səlahiyyətli nümayəndəliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra – səlahiyyətli nümayəndə) rəhbərlik edir. Səlahiyyətli nümayəndə səlahiyyətli nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Səlahiyyətli nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Səlahiyyətli nümayəndənin müavinləri səlahiyyətli nümayəndənin onlara həvalə etdiyi vəzifələri yerinə yetirirlər və buna görə şəxsən məsuliyyət daşıyırlar.

4.4. Səlahiyyətli nümayəndə, onun müavinləri, səlahiyyətli nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşlarıdır.

4.5. Səlahiyyətli nümayəndəliyin əməkdaşlarının işə qəbulunu və işdən azad edilməsini, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri həyata keçirir.

# Tarixi Zəfərimiz milli qürurumuzdur

## *Hərbi Qənimətlər Parkını ziyarətdən doğan təəssüratlar*




*Azərbaycanın şanlı Zəfərindən – o möhtəşəm, qəlbimizi qürurla, milli duyğularla dolduran gündən sonra çox istədik ki, bu qələbənin şərəfinə açılmış Hərbi Qənimətlər Parkında olaq. Bir gün istəyimiz çin oldu və bu parkı görmək qürurunu yaşadıq. Qeyd edim ki, Hərbi Qənimətlər Parkının yaradılması Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təşəbbüsü ilə bağlıdır. Burada nümayiş etdirilən çoxsaylı döyüş ləvazimatları 2021-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında nümayiş etdirilib.*

Əvvəla, onu qeyd edim ki, bu park başqa parklara bənzəmir: burada ağacların, gözəl güllərin, rahat oturacaqların yerinə bir müharibənin dəhşətlərini xatırladan döyüş ləvazimatları və texnikaları yerləşir ki, düşmən bağrını çatladır: 44 günlük Vətən müharibəsində Azərbaycanın rəşadətli Ordusu, qəhrəman Silahlı Qüvvələrinin ağır məğlubiyyətə uğratdığı düşməndən əldə edilən qənimətlər məhz burada nümayiş etdirilir: düşmənin ağır, sarsıdıcı məğlubiyyətdən sonra qoyub qaçdığı ağır texnikalar, atıcı silahlar, hərbi nəqliyyatlar, raket kompleksləri və digər sursatlar.

Parkın girişində adamı üzərində iri hərflərlə "Qarabağ Azərbaycandır!" yazısı olan lövhə qarşılayır. Bu o lövhədir ki düşmənin darmadağın olunarkən qoyub qaçdığı hərbi texnikaların yüzlərlə nömrələrindən düzəldilib. Qaçaqaça düşmüş düşmənin ağır məğlubiyyətini, mənim ölkəmin, Vətənimin şanlı Zəfər diktəsini əks etdirir. Bu həmin şüardır ki, Azərbaycanın Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq diskussiya klubunun XVI beynəlxalq toplantısında iştirak edən zaman bütün dünya ictimaiyyətinə və Azərbaycanın torpaqlarını işğal edərək 30 il əsarətdə saxlayan Ermənistan baş nazirinə ***"Qarabağ Azərbaycandır və nida işarəsi"***, – deyə qətiyyətli çağırışını səsləndirmişdi. Hətta həmin toplantıda Ermənistanın baş naziri Nikol Paşinyan özü əvvəlcə sanki haqqın-ədalətin diktəsi ilə bu tarixi gerçəkliyi etiraf etmiş, sonra "Qarabağ Ermənistandır və nöqtə" deyərək Ermənistanın işğalçılıq siyasətini təzahür etdirmişdi. Məhz bu ifadənin qarşılığında Azərbaycan Prezidentinin məşhur diplomatik-siyasi və Azərbaycan xalqının yekdil rəyi olan "Qarabağ Azərbaycandır!" qətiyyətli mesajı səslənmişdi. Bu baxımdan Hərbi Qənimətlər Parkındakı 2000-dən çox hərbi nəqliyyat vasitəsinin nömrə nişanlarından düzəldilmiş "Qarabağ Azərbaycandır!" lövhəsi Ali Baş Komandanımız cənab İlham Əliyevin həmin parkın açılışında səsləndirdiyi kimi, ***"...erməni fərariliyinin təzahürüdür... bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik".***

"Qarabağ Azərbaycandır!", əvvəla, bir cümlədir, sintaktik tərkibdir. Bir sintaktik vahid olaraq bu cümlə özündə əmr, hökm, qətiyyətli tələb və nida ifadə edir. Amma, sadəcə, cümlə də deyil... "Qarabağ Azərbaycandır!" sintaktik vahidi həm də və ən əsası diplomatik bir dilin təzahürü, milli iradənin təntənəsidir. Habelə Azərbaycan xalqının sözçüsü və təmsilçisi olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin torpaqlarımızı işğal edərək bölgədə müharibə ritorikası yaradan Ermənistan tərəfinə və ümumən, beynəlxalq ictimaiyyətə səsləndirdiyi son, yekun xəbərdarlıq və çağırışı idi. Bu səsləniş artıq 30 ildən artıq işğala və dünyanın ədalətsizliklərinə qətiyyətli bir etiraz və öz haqqını tələb səslənişi idi. Bu o tələb və xəbərdarlıq idi ki, Ermənistanın silahlı quldur dəstələri 2020-ci ilin sentyabrında yenidən Azərbaycanın Tovuz rayonu ərazisində sərhədlərimizi pozmuş və genişmiqyaslı hərbi əməliyyatlar keçirməklə yeni torpaqlar əldə etmək kimi sərsəm bir fikrə düşmüşdü. Bunun qarşılığında da ***"Qarabağ Azərbaycandır və nida işarəsi"*** fikrinin sahibi, müdrik və uzaqgörən rəhbər, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu əkshəmlə əməliyyatına başlamışdı. Bu əməliyyat Azərbaycanın şərəfli hərb tarixinə "Dəmir yumruq", müharibə isə "Vətən müharibəsi" olaraq düşdü.





44 günlük Vətən müharibəsində Azərbaycanın Silahlı Qüvvələri ən müasir döyüş texnikaları ilə döyüşərək qeyri-adi peşəkarlıq və döyüş nümayiş etdirmiş, dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan və bir nümunəyə çevrilən nadir döyüş məharəti sərgiləmişdi.

Onu da deyək ki, 44 günlük Vətən müharibəsi dövründə təkcə silahlar danışmadı, həm də siyasət danışdı: müxtəlif məsələlər ətrafında danışan dövlət başçımız təcrübəli siyasi xadim kimi özünün diplomatik məharətini və uzaqgörənliyini, bilik dairəsini və sözünün sanbalını, bir sözlə, öz gücünü nümayiş etdirdi. Nəinki Azərbaycan xalqı, bütün dünya ictimaiyyəti bu dönəmdə Azərbaycan Prezidentinin qətiyyətli çıxışları zamanı onun diplomatik məharətinin, siyasi məntiqinin, hazırcavablığının və geniş dünyagörüşünün şahidi oldu. Ölkəmizin lideri, hətta qərəzli suallara, bəzi media nümayəndələrinin hədsiz mühakimə xarakterli fikirlərinə səbirlə, qətiyyətlə, mükəmməl cavablar verməklə bu sahədə də öz qələbəsini nümayiş etdirdi. Azərbaycan Prezidenti, bütövlükdə, arxalandığı Azərbaycan xalqının gücü, qüvvəti ilə danışırdı. Aydın, həm də dəqiq, düzgün ifadələr cənab Ali Baş Komandanın dilindən sərrast bir güllə kimi çıxaraq xainlərin qəlbini deşirdi. Müzəffər Ali Baş Komandanın nitqi sarsılmaz bir gücün, əyilməz bir qətiyyətin, mətanətli mübarizənin təntənəsi idi. Beləliklə də, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev diplomatik, siyasi mübarizə sahəsində də qətiyyətli "müharibə" apararaq öz qələbəsini təntənə ilə təzahür etdirdi. Qətiyyətli və müdrik sərkərdəmiz cənab İlham Əliyev həm də konkret olaraq bütün dünya ölkələri və ictimaiyyətinə göstərdi ki: ***"Sözümüz imzadır!"***

Hərbi Qənimətlər Parkında "Qarabağ Azərbaycandır!" lövhəsinin arxasında lövhədəki diplomatik gücü, qüdrəti və qətiyyəti reallaşdıran Azərbaycanın əsl hərbi qüdrətinin nəticələri dayanır. Burada işğalçı, mənfur Ermənistanın 30 il ərzində işğal etdiyi ərazilərimizdə daşı daş üstə qoymayıb torpağın altını üstünə çevirən barbar əməllərinin nəticəsi və öz işğalçı niyyətlərini möhkəmləndirmək üçün qurduqları on mərhələlik aşılmaz sədlər, quş quşluğu ilə uça bilməyəcək baryerlərin təsviri yer alıb. Bu ağır, dəhşətli baryerlərin kiçildilmiş modeli həmin lövhənin ardında sərgilənib. Bu baryerlərə tamaşa etdikcə içini almış dəhşətlə düşünürsən: İlahi, bu dərəcədə xain, iblis xislətli bir məxluq olarmı ki, bu şeytan əməlini yaradıb? Bir-birindən çətin, daha aşılmaz, öldürücü sədləri necə keçmək olardı ki?! Ardınca da qürurlanırsan ki, İlahi, gör Azərbaycan Ordusunun güc-qüvvətini,

*Ardı 3-cü səhifədə*

döyüş məharəti və əzmini ki düşmənin bütün hiyləsinin yerləşdiyi bu baryerlərdən necə məharətlə keçməyə nail olub?! İlahi, bu xain sədləri keçən əsgərlərimiz İlahidən hansı gücü, qüdrəti alıblar?! Orada Azərbaycan əsgəri necə döyüşüb, hansı qəhrəmanlığı, rəşadəti göstərib, adamın ağlı almır. Amma içini dolduran bir qürur hissi, məğrurluq duyğuları var ki, məhz bu görünməmiş şücaəti, qəhrəmanlığı və məharəti məhz Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərməyə nail olub, aşılmazları aşıb, keçilməzləri keçib, alınmaz sanılanları alıb! Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***“Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər”.***



Keçilməz sədlərin yerləşiminin ardınca isə 44 günlük Vətən müharibəsində göstərilən misligörünməmiş qəhrəmanlıq və rəşadətli döyüşlərin nəticəsi – dabanına tüpürüb qaçaqaça düşmüş düşmənin geridə qalan döyüş ləvazimatları, ağır artilleriya, döyüş maşınları və müxtəlif silah və sursatları sərgilənmişdir. Bu qeyri-adi parkda həm də düşmənin hirsi və hiyləsinə qarşı göstərilmiş ağıl və şücaətlə bərabər, bir ironik gülüş də təzahür tapır: “Noldu Paşinyan?!” Vaxtilə Ermənistanın baş naziri böyük iddia ilə səsləndirmişdi ki, onun zirehli texnikası Bakıya girəcək və “girdilər də”: darmadağın olunmuş, əsir-girov götürülmüş, sahibinə utanc yaşadan şəkildə məhz Hərbi Qənimətlər Parkında ağır bir məğlubiyyəti, təslimçiliyi sərgiləmək üçün daxil oldular.

Bütün qeyri-adiliyi ilə Azərbaycanın Hərbi Qənimətlər Parkı düşmənin təslimolma utancını sərgiləyir. Azərbaycan Ordusunun malik olduğu döyüş imkanları və müasir, mükəmməl döyüş qabiliyyətini nümayiş etdirir. Azərbaycan Ordusu Ermənistanın haqqında saxta mif yaratdığı hərbi qüvvəsini cəmi 44 günə darmadağın etdi. Cəmi 44 günə ən ağır itkilərlə təslim olmağa məcbur olan düşmənə elə bir tarixi dərs verildi ki, onlar bir də çətin bu torpaqlara sarı baxa bilərlər. Çünki bu məğlubiyyətdə ermənilərin və onların havadarlarının bütün paxırı, hiyləsi, ləyaqətsizliyi və alçaqca davranışları ortaya çıxdı. Döyüş meydanını atıb qaçan Ermənistan Azərbaycanın sivil şəhərlərini, mülki vətəndaşlarını hədəfə almaqla terrorçu bir ölkə olduğunu bir daha utanmadan nümayiş etdirdi.

İndi Bakı şəhərində, dövlətimizin paytaxtında yerləşən Hərbi Qənimətlər Parkı digər parklardan daha çox ziyarət olunur. Azərbaycan vətəndaşları burada daha yaxşı istirahət edirlər. Çünki burada yüz illərcə xalqımıza xəyanət edib, onu havadarları ilə birgə ən xain şəkildə yerindən-yurdundan didərgin salan, uşağa, qadına, qocaya divan tutan, Xocalı soyqırımını törədən, vəhşiliyi və xainliyi ilə qürur duyan mənfur bir xalqın apaçıq məğlubiyyəti sərgilənir. Çünki burada illərcə dünyanın ikiüzlü siyasətinin qurbanına çevrilmiş, fəlakətlər, bəlalar yaşamış Azərbaycan xalqının milli qüruru, yenilməyən məğrurluğu, vüqarı, düşməni məğlub edən qüdrəti əzəmətlə görünür. Çünki burada düşmənlərinə başından ağır, sarsıdıcı zərbə vuran “Dəmir yumruğ”un – xalq, ordu və lider birliyinin, milli həmrəyliyin gücü görünür. Çünki məhz bu yerdə məğlub olmuş düşmənin məhv edilmiş xain niyyətlərinə qarşı davamlı olaraq döyüşmüş, var olmuş bir uzaqgörən, müdrik siyasət, düzgün qərarlar, təqdiredici idarəçilik və dünyanı öz siyasətinə inandıraraq əldə olunan sarsılmaz əməkdaşlıq görünür! Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Hərbi Qənimətlər Parkının açılışında dediyi kimi: ***“Buraya gələn hər bir insan – Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur onlara verilən cavab. Qarabağ Azərbaycandır!”***

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent*

---



*Axtarışlar, tapıntılar*

# Azərbaycanın qədim yaşayış məntəqəsi
# Gənzə

Ordubad rayonunun Gənzə kəndi qədim tarixə malik yaşayış məskənlərindən biridir. Rayon mərkəzindən 7 kilometr şimal-şərqdə, yaşıllıqlar qoynunda yerləşir. İndiyədək kəndin ərazisində arxeoloji tədqiqatlar aparılmadığı üçün onun tarixi haqqında elmi cəhətdən əsaslı fikir söyləmək mümkün deyildir. Ancaq kənddə indiyədək qalan bir neçə maddi mədəniyyət nümunəsi onun orta əsrlər zamanı bölgənin əhəmiyyətli və inkişaf etmiş yaşayış məskənlərindən olduğunu xəbər verir. Məlumdur ki, osmanlılar 1724-cü ildə Naxçıvan bölgəsini tutduqdan sonra ərazi Osmanlı üsul-idarəsinə daxil olub və burada yeni inzibati ərazi bölgüsü – 14 nahiyədən ibarət Naxçıvan sancağı yaradılıb. Bölgədə idarə işlərini asanlaşdırmaq, vergi verəcək əhalidən vergilərin nizamlı şəkildə toplanmasını təşkil etmək üçün osmanlılar bir sıra tədbirlər həyata keçiriblər. Belə tədbirlərdən biri də əhalinin siyahıya alınması olub. Həmin vaxt kişilərdən vergi verəcək adamların adları xüsusi dəftərlərdə qeyd olunurdu. Beləliklə, bu dəftərlərin əsasında 1727-ci ildə “Naxçıvan sancağının müfəssəl dəftəri” tərtib edilib. Dəftərdə qeyd olunduğuna görə, osmanlıların hakimiyyəti illərində Gənzə kəndində vergi yaşına çatmış, yəni 20 yaşdan yuxarı 21 kişi yaşamışdır.





Naxçıvanda olan rus məmuru və tədqiqatçısı İ.Şopenin məlumatından bəlli olur ki, XIX yüzilliyin 30-cu illərində Gənzədə 16 ailə (36 kişi, 24 qadın, cəmi 60 nəfər) yaşamışdır. Müəllifin məlumatından o da aydın olur ki, həmin vaxt Gənzədə bir nəfər də olsun qeyri-azərbaycanlı yaşamamışdır. 12 dekabr 1926-cı ildə keçirilmiş siyahıyaalınmaya görə kənddə 665 nəfər adam yaşamışdır. Hazırda kənddə 1711-ə yaxın sakin yaşayır.

Kəndin ərazisində zəmanəmizədək orta əsrlər dövrünə aid bir sıra maddi mədəniyyət nümunələri gəlib çatmışdır. Bu abidələr içərisində kəndin mərkəzində yerləşən məscid xüsusi yer tutur. Məscid bölgəmizdə indiyədək salamat qalan ən qədim memarlıq nümunələrindən biridir. Ancaq təəssüf ki, belə möhtəşəm bir sənət abidəsi indiyədək diqqətdən kənarda qalmış, tədqiq olunmamışdır. Onun haqqında yalnız 1927-ci ildə Ordubadda olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi, rus alimi V.Sısoyev qısa məlumat vermiş, məscidin ölçüləri, quruluşu haqqında bir neçə cümlə ilə bəhs etmişdir. Yerli əhali arasında olan fikrə görə, məscid Hacı Hüseynqulu adlı mötəbər bir şəxs tərəfindən inşa edilmişdir. Ancaq məscidin üzərində memarlıq abidəsi haqqında müfəssəl məlumatlar verən epiqrafik sənəd-kitabə olmadığı üçün onun inşa tarixi haqqında qəti fikir söyləmək çətindir. Hacı Hüseynqulu vəfat etdikdən sonra məscidin qarşısında cənub divarın yanında dəfn olunmuşdur. Son illərdə onun qəbrinin üstü düzəldilmiş, mərmər başdaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə ərəb dilində “Mərhum Hacı Hüseynqulu. XVI əsr” sözləri yazılmışdır. Hacı Hüseynqulunun vəfat tarixinin XVI əsr kimi göstərilməsi heç bir tarixi fakta söykənmir və yaşlı sakinlərin söylədiyinə görə, təxmini bir tarix olaraq orada həkk edilmişdir.

Məscid özünün memarlıq-konstruktiv quruluşu ilə diqqəti cəlb edir. İslamın müqəddəs kitabı “Qurani-Kərim”in “Tövbə” surəsinin 18-ci ayəsində məscidləri abadlaşdırmaq, bərpa və təmir etdirmək təqdir olunduğundan orta əsrlərboyu ayrı-ayrı yaşayış məskənlərinin əhalisi və imkanlı şəxslər çoxlu məscidlər tikdirmiş və ya onları bərpa etdirərək abadlaşdırmışlar. Bu fikir Naxçıvan bölgəsində indiyədək gəlib çatan orta əsr məscidləri üzərində qalan kitabələrdə təsdiqini tapır. Bu ənənə indi də davam etdirilir. Azərbaycanın müstəqilliyi bərpa olunduqdan və insanlara vicdan azadlığı verildikdən sonra Gənzə kəndinin əhalisi də belə bir xeyirxah iş görərək Hacı Hüseynqulu məscidini əsaslı təmir etdirmiş, kənd sakini Hacı İsrafil Sadıqlı məscid üçün gözəl bir minarə tikdirmişdir. Minarənin üstündə ərəb və kiril əlifbası ilə belə bir kitabə qoyulmuşdur: “Minarə 2000-ci ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilmişdir. Memarlar: Kərbalayı Səid, Kərbalayı Qurban”. Hazırda məscid kənd əhalisinin istifadəsindədir.



Məscidin şimal-şərq tərəfində hamam binası vardır. Kənd ağsaqqallarının söylədiyinə görə, bu hamamı da Hacı Hüseynqulu inşa etdirmişdir. Məscidlə müqayisədə hamam daha çox dağıntıya məruz qalsa da, girişi, soyunma və yuyunma salonları və dam örtüyü salamat vəziyyətdə bizim dövrə gəlib çatmışdır. Hamam son zamanlaradək əhalinin istifadəsində olmuşdur. Qeyd etmək yerinə düşər ki, bu hamamın oxşarı rayonun Nüsnüs kəndində qalmaqdadır. Bu iki hamam inşa edilərkən oxşar memarlıq ünsürlərindən istifadə olunmuşdur. Ona görə də ehtimal etmək olar ki, bu hamamlar eyni memar tərəfindən bir dövrdə inşa edilmişdir.

Məsciddən və hamamdan, təxminən, 100 metr cənubda kənd qəbiristanlığı yerləşir. Bu qəbiristanlığın yerləşdiyi ərazini də Hacı Hüseynqulu özünəməxsus torpaq sahəsindən ayırmışdır. Hazırda dəfn mərasimləri keçirilən qəbiristanlıqda orta əsrlər dövrünə aid dörd başdaşı tipli xatirə abidəsi qalmışdır.

Bu abidələrin üzərində dəfn olunan mərhumların xatirəsinə yazılmış məzar kitabələri – epitafiyalar vardır. Həmin epitafiyaların verdiyi məlumatlar əsasında qəbiristanlığın ərazisini əhaliyə bağışlayan Hacı Hüseynqulunun yaşadığı dövr, həmçinin onun inşa etdirdiyi məscid və hamamın inşa tarixi haqqında müəyyən fikir söyləmək mümkündür.



Ordubad rayonu üçün xarakterik olan boz daşdan (ölçüsü 70x42x7 santimetr) hazırlanmış bir başdaşı üzərindəki kitabə nisbətən salamat qalmışdır. Ərəb dilində 6 sətirdə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

“Fanidir həyatı yer üzündə hamının. Təkcə cəlal yiyəsi, kərəm yiyəsi Rəbbin qalandır. Bu bağça (qəbir) bağışlanmış Harunun oğlu Möhsinin oğlu, mərhum, günahları bağışlanmış, xoşbəxt şəhid, uca Allahın rəhmətinə getmiş Əlinindir. Doqquz yüz qırx üçüncü il tarixdə”.

Hicri-qəməri təqvimi ilə 943-cü il miladi təqvimi ilə 1536-cı ilə müvafiq gəlir.

Kitabənin məzmunundan aydın olur ki, Harunun oğlu Möhsinin oğlu Əli şəhidlik zirvəsinə yüksəlmiş, bu səbəbdən də mətndə “xoşbəxt şəhid” kimi təqdim olunmuşdur.

Başdaşının sol tərəfində boz rəngli daşdan hazırlanmış başqa bir başdaşı (57x39x7 santimetr) üzərində yazılan kitabə güclü aşınmaya məruz qalmış, aşağı hissəsi tam ovulub tökülmüşdür. Kitabənin qalan hissəsinin mətni belədir: “Qurani-Kərim” 26,27. ...Allaha qovuşmuş...”

Həmin başdaşının sağ tərəfində başqa bir başdaşı (57x37x8 santimetr) da vardır. Boz daşdan hazırlanmış həmin başdaşının üzərindəki kitabə aşındığı və zaman keçdikcə üstünü mamur tutduğu üçün kitabənin oxunuşu çox çətinləşmişdir. Kitabədən ancaq əvvəldə yazılan “Qurani-Kərim”in “Ər-Rəhman” surəsinin 26 və 27-ci ayələri və bir neçə sözü oxumaq mümkün olmuşdur. Qəbiristanlıqda bu başdaşılardan, təxminən, 30-40 metr şimalda başqa bir başdaşı tipli xatirə abidəsi vardır. Qırmızımtıl rəngli daşdan hazırlanmış bu başdaşının (ölçüsü 62x31x6 santimetr) üzərində də kitabə vardır. Ərəbcə yazılmış kitabənin mətni belədir: “Həqiqi, hörmətli alim, şəhid mərhum Əliqulunun – salam olsun – torpaq məzar mülkü. 1062-ci il”. Kitabədən göründüyü kimi, 1651-ci ilə müvafiqdir.

Bu qəbirüstü abidələrin tarixinə əsasən həm qəbiristanlığın özünün, həm də kənddəki məscid və hamamın tarixi haqqında təxmini də olsa, fikir söyləmək mümkündür. Belə ki, əvvəldə qeyd olunduğu kimi, qəbiristanlığın ərazisini Hacı Hüseynqulu bağışlamışdır. Buradakı məzar kitabələrindən birinin tarixi 1536-cı ilə aiddir. Şübhəsiz ki, bu başdaşını qəbiristanlıqda dəfn olunan ilk mərhumun xatirəsinə hazırlanmış abidə hesab etmək olmaz. Bu kitabənin həkk olunduğu başdaşı qəbiristanlığın cənub hissəsində, digər iki başdaşının ortasındadır. Deməli, XVI yüzilliyin 36-cı ilində vəfat etmiş bu mərhumun sağında və solunda dəfn olunmuş adamlardan biri ondan əvvəl, digəri sonra dünyasını dəyişmişdir. Qəbiristanlıqda vaxtilə bu abidələrdən əvvəlki dövrlərə aid məzar kitabələrinin olması, ancaq sonralar onların təbii qüvvələrin təsirindən aşınaraq sıradan çıxması faktının mümkünlüyünü də unutmaq olmaz.

**Rəsmiyyə NAĞIYEVA**
*Ordubad Rayon Tarix-Memarlıq Qoruğunun elmi işçisi*

### Elimizin, ilimizin uğurları

# Tələbə-gənclərimizin uğurları

***“Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi, mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.***

Ümummilli liderimizin bu sözləri onun Azərbaycan gəncliyinə olan inamını ifadə edir və bu gün şahid oluruq ki, Vətən gəncləri ümummilli liderin ümidlərini doğruldur. Dövlət gənclər siyasətinin prioritet istiqamətinin reallaşdırılmasında, gənclərin öz bilik və bacarıqlarını inkişaf etdirməsində, cəmiyyətdə layiqli yer tutmalarında mühüm rol oynayan ali təhsil müəssisələrinin hərtərəfli dəstəyi də danılmazdır. Bu gün Naxçıvan Dövlət Universiteti də muxtar respublikada tələbələrlə müvafiq iş aparараq onların könüllü fəaliyyətini tam dəstəkləyən təhsil ocaqları sırasında özünəməxsus yer tutur. Artıq 2022-ci ili geridə qoyuruq və Naxçıvan Dövlət Universitetinin ətrafında cəmlənən fəal tələbələrin könüllü fəaliyyətləri ilə yaxından tanış olmaq yerinə düşər.

İlk həmsöhbətimiz Naxçıvan Dövlət Universitetinin Biologiya müəllimlik ixtisası üzrə



IV kurs tələbəsi ***Ülvi İsmayıllı***dır. O, universitetdə təhsil aldığı illər ərzində müxtəlif idman və intellektual yarışlarda yaxından iştirak edib, 2019-cu ildə universitetdə keçirilən oğlanlar üzrə şahmat yarışında I yerə, 2021-ci ildə muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri arasında keçirilən şahmat yarışında Naxçıvan Dövlət Universiteti komandası tərkibində 6 oyunda 6 bal toplayıb yenə də I yerə layiq görülüb. Eyni ildə universitetdə ilk dəfə laboratoriya klubu təsis etmək layihəsini reallaşdıran, 2022-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilən “KimBioPiada” olimpiadasında “Ən yaxşı oyunçu” nominasiyası üzrə I yeri tutan, öz fəaliyyətinə görə müxtəlif diplom və sertifikatlarla təltif olunan Ülvi 2022-ci il barədə belə deyir: “4 ildir ki, bu universitetdə təhsil alıram. Təhsilimin son ilindən geriyə baxarkən necə böyük uğurlar əldə etdiyimi görürəm. Universitetə qəbul olduğum ilk gündən çalışmışam ki, təhsil almaqla yanaşı, öz üzərimdə işləyim və könüllü kimi fəaliyyət göstərim. 2022-ci il də kimi böyük uğurlar qazanmışam, lakin məhz bu il yaddaşımda tamamilə fərqli qaldı. Ötən illərdə universitetimizdə fəaliyyət göstərən müxtəlif tələbə təşkilatlarının, xüsusilə Tələbə-Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə uğur əldə etməyi bacardım. Əlbəttə, dövlətimiz daim öz diqqət və qayğısını biz tələbələrə göstərir. 2022-ci ildə təşkilatlarda fəaliyyət göstərən yoldaşlarımla birgə müxtəlif tədbirlərdə, o cümlədən I Beynəlxalq Tibbi Foruma könüllü konduktor kimi cəlb olundum. Bu cür tədbirlər biz gənclər üçün elm, dünyagörüşü və intellekt bir araya gəlməsi baxımından olduqca əhəmiyyətlidir, böyük təcrübədir.

Müsahibimiz söhbətinə belə davam edir: – Artıq bitməkdə olan bu il mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ötən günlərdə Naxçıvan Dövlət Universitetini təmsil etdiyimiz “Eco-Tech” komandamız Azərbaycanda ilk dəfə keçirilən “Tullantısız dünya” proqramı çərçivəsində “Recyclation” hakatonunda II yerə layiq görüldü. Bu, komanda yoldaşlarımı və məni xeyli qürurlandıran bir nailiyyət idi. Layihənin əsas məqsədi plastik butulkaların geri dönüşü prosesini reallaşdırmaq idi. Bu səbəblə terminal yaratdıq və terminala daxil olan plastik butulkalara görə mövcud hesaba pul köçürüldü. QR kodu sistemindən istifadə edərək asanlıqla pulu hesaba köçürmək mümkündür. Beləliklə, 3D printerlərdə istifadə olunan flamentlərin hazırlanması zamanı ehtiyac duyulan həmin plastik butulkalardan əldə etmiş oluruq. Günümüzün ən aktual məsələlərindən biri də flamentlərin istehsalıdır. Bu layihə nəticəsində standart qiymətdə olan flamentlər daha ucuz başa gəlir. Eyni zamanda plastik butulkaların səmərəli geri dönüşünə yönəlmiş ticarət yönümlü bir layihədir. Onu da qeyd etməliyəm ki, hakatonun qaydalarına əsasən layihə yarımfinalla eyni gecədə hazırlanıb təqdim edilməli idi. Komandamızla birgə proqramı yazıb saytı hazırladıq və təqdimat zamanı layihəmiz münsiflər heyətinin marağına səbəb oldu. Çünki “Ecotech” komandamız yeganə komanda idi ki, iki qurğu, bir proqram və domeni olan bir saytla çıxış edirdi.

Əlbəttə, bu gün mən və mənim kimi Naxçıvan Dövlət Universitetinin işığına cəmlənən minlərlə gəncin dövlət və cəmiyyətin inkişafında yaxından iştirakı Azərbaycan gəncliyinə göstərilən diqqətin təzahürüdür. Və əminəm ki, biz gənclər də bizə olan ümidi, inamı doğruldacaq, mühüm əhəmiyyət kəsb edən tribunalarda dövlətimizi qürurla təmsil edəcəyik.

Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələr istər yerli, istərsə də beynəlxalq tədbirlərdə universiteti layiqincə təmsil və təbliğ edirlər. Onlar keçirilən müsabiqələrə innovativ ideyaları, layihələri ilə təmsil olunurlar. Belə müsabiqələrdə də yaxından iştirak edib uğur qazanan, öz layihələri ilə səs gətirməyi bacaran tələbələrdən biri də universitetin Beynəlxalq



münasibətlər ixtisası üzrə III kurs tələbəsi ***Adəm Məmmədov***dur. Adəm 2020-ci ildə qəbul olduğu ali təhsil müəssisəsində elə ilk günlərdən etibarən Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatında könüllülük fəaliyyətlərinə qoşulub. Həmin ildən təşkilat nəzdində fəaliyyət göstərən Şahmat klubunda əldə etdiyi bilik və bacarıqlarını tələbə yoldaşları ilə bölüşməyə başlayıb. Artıq üç ildir ki, universitet daxilində bir sıra şahmat turnirləri təşkil edir. Qeyd etmək lazımdır ki, Adəm 2021 və 2022-ci illərdə muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri arasında keçirilən şahmat yarışlarında I yerə layiq görülən Naxçıvan Dövlət Universiteti komandasında iştirak edib. Adəm deyir ki, 2022-ci ili özünün ən böyük uğurlarından hesab etdiyi Azərbaycan Respublikası Gənclər Fondunun “İdeyanı reallaşdır 2022” Gənclərin fərdi layihələri üzrə qrant müsabiqənin qalibləri arasında yer tutması ilə səciyyələndirir. Qrant müsabiqəyə yeni növ intellektual oyun olan “TAP-MAT”la qatılan Adəm intellektual şahmat oyunu üzrə I yerin qalibi seçilib. Bu yeni oyun şahmat idman növü ilə intellektual oyunların sintezlənmiş bir formasıdır. Gənc şahmatçı deyir: “Oyunu yaratmaqda əsas məqsədim bu idman növündə xüsusi istedada malik şəxsləri önə çıxarmaq və müxtəlif tədbirlər həyata keçirməkdir. Beləliklə, intellektual oyunlar ilə ölkəmizdə son zamanlarda yüksəlişdə olan şahmat idman növünü sintezlədik və yeni növ intellektual oyun yaratdıq. Ümid edirik ki, yaratdığımız bu yeni növ intellektual oyun hazırda mövcud olan problemlərin aradan qaldırılmasında xüsusi əhəmiyyətə malik olacaq və gəncliyimizin inkişafını təmin edəcəkdir. Layihənin hədəf qrupu ilkin mərhələdə Naxçıvan şəhərində yerləşən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələr olacaq. Əgər layihə region daxilində uğur qazanarsa, bu oyunun ölkə ərazisində keçirilməsinə cəhd ediləcək və hədəf qrupu Azərbaycanın bütün təhsil müəssisələrindəki şagird və tələbələri əhatə edəcək şəkildə genişləndiriləcəkdir”.

2022-ci ilin onun üçün düşərli bir il olduğunu söyləyən müsahibim hazırda şahmat üzrə fəaliyyətini uğurla davam etdirir. Artıq təşkilat nəzdindəki şahmat klubundakı fəaliyyət öz nəticəsini verməyə başlayıb. Kluba üzv olan tələbələr istər muxtar respublikada, istərsə də onlayn beynəlxalq turnirlərdə nailiyyətlər əldə edirlər.

2022-ci il, eyni zamanda universitetə yeni qəbul olunmuş tələbələrin də uğurlu hesab etdiyi ildir. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi ***Tüncay Seyidova*** da bir neçə aydır, universitetdə təhsil almasına baxmayaraq, bir sıra uğurları ilə seçilir. 2022-ci ili, ilk



növbədə, ali təhsil müəssisəsinə qəbul olmağın sevinci ilə xatırlayan Tüncay Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatı nəzdində yaratdığı “Oriqami” klubu ilə tələbələrin və universitet rəhbərliyinin diqqətinə səbəb olmuşdur. Onun dediklərindən: “Böyük marağım olan oriqami sənətinə (kağız qatlamaqla fiqurlar düzəltmək) məktəb vaxtlarından başlamışam və bu sənəti çox sevirəm. Asudə vaxtlarımda oriqami ilə məşğul oluram. Universitetlə tanış olduqdan sonra burada tələbələrin maraq dairələrinə uyğun fəaliyyət göstərə biləcəyi klubların mövcud olduğunu gördükdə düşündüm ki, oriqami sənətinə marağı olan tələbələri də öz ətrafımda birləşdirib fəaliyyət göstərə bilərəm. Beləliklə, Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı nəzdində “Oriqami” klubu yaratmaq qərarına gəldim. Əlbəttə, bu nöqtədə Tələbə-Gənclər Təşkilatının da böyük dəstəyini hiss etdim. Hazırda “Oriqami” klubunun sədriyəm. Məni sevindirən bu klub ətrafında cəmlənən, oriqamini sevən xeyli sayda tələbələrin olmasıdır. Klubumuz həftədə 2 dəfə olmaqla, 2-ci və 5-ci günlər fəaliyyət göstərir. Klub ətrafında cəmlənən yoldaşlarımla birgə çalışırıq. Onlar kağızları kəsib qatlayır, mən isə həmin kağızları iç-içə keçirib “toxuyaraq” müxtəlif fiqurlar hazırlayıram. 2022-ci ilin mənim üçün əhəmiyyətli olmasının digər bir səbəbi isə bizim oriqamiyə olan marağımızın və klubdakı fəaliyyətimizin universitet rəhbərliyinin diqqətindən kənarda qalmaması və hazırladığımız əl işlərinin sərgisinin təşkil olunması idi. 30 noyabr tarixdə hazırladığımız əsərlərin sərgisi və “Oriqami.az” startapının təqdimatı keçirildi. Sərgidə hazırladığımız heyvan fiqurları, dekorativ fiqurlar təqdim olundu. Artıq klubumuzun *oriqami.az* saytı var və bu saytda əl işlərimiz yerləşdirilib. Bizim kimi gənclərin arzularının dəstəklənməsi, diqqətdə saxlanılması böyük sevincdir. Fəaliyyətimizi dəstəkləyən Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatına minnətdarlığımı bildirirəm”.

Göründüyü kimi, gənclər onlar üçün yaradılan şəraitdən maksimum şəkildə istifadə edirlər. Əminik ki, onlar daim öz üzərlərində çalışaraq milli dövlətçiliyimizə və cəmiyyətimizə öz töhfələrini verəcəklər.

**Aysel YUSİFZADƏ**

## Tələbələrlə görüş



Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin tələbələri ilə görüş keçirilib.

Ali təhsil müəssisəsinin rektoru, dosent Elbrus İsayev görüşdə çıxış edərək fakültənin mövcud kadr potensialı, maddi-texniki bazasının verdiyi imkanlar, bu sahədə uğurlu kadr hazırlığının tam mümkünlüyünü diqqətə çatdırıb. Qeyd olunub ki, yaradılan Robotexnika, Kompüter mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi ixtisasları da bu sahədə mütəxəssislərin yetişməsi istiqamətində atılan mühüm addımdır. Rektor bildirib ki, universitetdə beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində əhəmiyyətli işlər görülüb, dünyanın qabaqcıl təhsil müəssisələri ilə əlaqələrin qurulması və möhkəmləndirilməsi, müəllim və tələbə mobilliyinin təşkil olunması sahəsində mühüm addımlar atılıb. Ali təhsil ocağının genişmiqyaslı imkanlarından söz açan rektor universitetin bir neçə sahədə ölkə miqyasında model universitet olduğunu vurğulayıb. Bildirilib ki, tədris imkanlarını artırmaq məqsədilə universitet ərazisində genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Vurğulanıb ki, dünya universitetlərində olan Texnopark ənənəsi Azərbaycanda ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində davam etdirilərək kampusda Texnologiyalar Parkı yaradılır. “Texnoparkın qazandıracağı perspektivlərə əsasən Türkiyə universitetləri ilə bu sahədə təcrübələrin öyrənilməsi davam etdirilir və əməkdaşlıq protokolları imzalanır”, – deyə rektor çıxışında vurğulayıb.

Elbrus İsayev qarşıda duran həllivacib məsələlər sırasında universitetdə ikili diplom layihələrinin həyata keçirilməsinin də nəzərdə tutulduğunu qeyd edib.

Rektor tələbələri maraqlandıran sualları cavablandırıb, onlara kitablar hədiyyə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Profilaktik tədbirlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları tərəfindən Sədərək rayonunda həmin rayon üzrə icra və probasiya bölməsinin icraatında olan aliment və pul tələbi ilə bağlı icra işləri üzrə borclu şəxslərlə profilaktik söhbət aparılıb.*



Ədliyyə Nazirliyinin İcra və probasiya şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emin Kazımov bildirib ki, məhkəmə qərarlarının təmin olunması, icradan qərəzli olaraq boyun qaçıran, ödəmələrin aparılmasından yayınan və qərarların icrasına laqeyd yanaşan borcluların icraya cəlb edilməsi, bu sahədə yaranan maneələrin aradan qaldırılması, həmçinin vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunması nazirlik tərəfindən diqqətdə saxlanılır.

Nazirliyin İstintaq bölməsinin rəisi, ədliyyə müşaviri Zamin Nəbiyev və İcra və probasiya şöbəsinin aparıcı məsləhətçisi, II dərəcəli ədliyyə qulluqçusu Rahib Səfərov icra sahəsində qanunvericiliyin tələbləri barədə ətraflı məlumat veriblər.

Sonda aliment və pul tələbi ilə bağlı ödənişlərini vaxtında ödəməyən borclular da dinlənilib, yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində müzakirələr aparılıb və onların suallarına aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Yeni il ərəfəsində Naxçıvanda kənd təsərrüfatı və sənaye məhsullarının satış yarmarkası keçiriləcək



Yeni il ərəfəsində dekabr ayının 24-dən 30-dək Naxçıvan şəhərinin Xətai küçəsində yerləşən Mərkəzi Bazarda bayram yarmarkası təşkil olunacaq.

Yarmarkaların keçirilməsində əsas məqsəd istehlakçıların seçim imkanlarının artırılmasını, eləcə də süni qiymət artımının qarşısının alınmasını və alıcıları daha ucuz qiymətlərlə satılan məhsullarla təmin etməkdir.

İstehlakçılar bu yarmarkada sənaye müəssisələrinin, kənd təsərrüfatı istehsalçılarının və ailə təsərrüfatlarında istehsal olunan məhsulların bazardakı qiymətlərlə müqayisədə daha ucuz qiymətə əldə edə biləcəklər.

Muxtar respublika sakinlərini kənd təsərrüfatı və qida məhsullarına olan tələbatlarını təbii məhsullarla dolğun şəkildə təmin etmək üçün yeni il yarmarkasına dəvət edirik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

### İtmişdir

Sədərək rayonunun Sədərək kəndində yaşamış mərhum Səfərov Ələkbər İbrahim oğlunun adına verilmiş JN-1485A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Şıxmahmud kənd sakini Şahverdiyev Amil Fəxrəddin oğlunun adına verilmiş AAN-711192 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əlincə məhəlləsi bina 20, mənzil 16 ünvanında Allahverdiyeva Şəfiqə Mahmud qızının adına olan MH-0062889 nömrəli daşınmaz əmlakın dövlət reystrindən çıxarışı itdiyindən etbarsız sayılır.

***

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi 94 ünvanda Mahmudov Maqsud Şəmil oğlunun adına verilmiş 244 nömrəli “Mülkiyyət hüququ haqqında şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 1154